# Azərbaycan Dövlət Pedaqoji Kollecində imtahanlar yeni qaydada aparılır





Təxminən iki həftədir ki, ölkənin ali və orta ixtisas təhsili müəssisələrində yaz semestrinin imtahan sessiyası başlanıb. Digər təhsil ocaqlarında olduğu kimi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində də tələbələr artıq dövlət və semestr imtahanlarının bir neçəsini veriblər. Kollecə yeni direktor təyin olunmuş hüquq elmləri üzrə fəlsəfə doktoru Qulu Novruzovun təşəbbüsü ilə yaz semestri imtahanlarının təşkilində və keçirilməsində yeni mexanizm tətbiq edilib. Yenilikdə məqsəd imtahanların tam obyektiv və şəffaf keçirilməsini təmin etməkdir.

Bu günlərdə kollecdə olub yeniliyin mahiyyəti ilə maraqlandıq, imtahanlarda iştirak etdik. Kollecin direktoru Qulu Novruzov bildirdi ki, təhsil müəssisəsinə semestr ərəfəsində direktor təyin edildiyindən imtahanların təşkili və keçirilməsi ilə bağlı köklü dəyişiklik etməyə imkan olmayıb. Amma imtahan sessiyasını mövcud qaydalara uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədi ilə bir sıra ciddi addımlar atılıb və yenilik tətbiq olunub.

Yaz semestri imtahan sessiyasının təşkili ilə bağlı Təhsil Nazirliyinin 11 may 2016-cı il tarixli 279 nömrəli əmrinin icrasını təmin etmək üçün kollec üzrə əmr imzalanıb. Həmin əmrlə kollecin direktorunun rəhbərliyi ilə imtahan qərargahı yaradılıb. Sessiyanın gedişi və qiymətləndirmənin nəticələri ilə bağlı müraciət və şikayətlərə baxılması məqsədilə apelyasiya komissiyası təşkil olunub.

Kollec üzrə dövlət attestasiya imtahanlarının təşkili barədə digər bir əmrlə ibtidai sinif müəllimliyi, ailə və ev təhsili, informatika müəllimliyi, texnologiya müəllimliyi və təsviri incəsənət müəllimliyi ixtisasları üzrə məzunların hazırlıq səviyyəsini yoxlayıb ixtisas dərəcəsi vermək məqsədilə Dövlət Attestasiya Komissiyası yaradılıb.

Bu il kollecin bütövlükdə 1000 nəfərdən artıq məzunu olacaq. Onların az bir qismi qiyabiçilər, əksəriyyəti isə əyani təhsil alanlardır. İbtidai sinif müəllimliyi ixtisası üzrə məzun olacaq tələbələrin sayı 600 nəfərdir. İmtahanların keçirilməsi ilə bağlı həm təşkilati, həm kadr potensialı, həm də infrastrukturun təchizatı baxımından hazırlıq işləri görülüb. İmtahana 1 ay qalmış bütün fənlər üzrə imtahan biletləri hazırlanaraq kollecin dəhlizlərindəki xüsusi lövhələrdə yerləşdirilib. I mərtəbədə giriş qapısının yanında tələbələrin şikayət və təkliflərini bildirməsi üçün qutu qoyulub. İmtahanlarda iştirakla bağlı valideynlərlə iş aparılıb. Ən əsası isə imtahanların şəffaf və obyektiv keçirilməsi üçün yeni mexanizm hazırlanaraq tətbiq olunub və o, gündən-günə daha da təkmilləşdirilir. Bu məqsədlə kollecdə 3 - kodlaşma, yoxlama və emal otağı ayrılıb. İmtahanlar yazılı keçirilir və hər imtahan verən tələbəyə 5 sual təqdim olunur.

Təsdiq olunmuş imtahan vərəqləri və A-4 formatlı iki vərəqdən ibarət cavab kartları imtahana bir gün qalmış bu iş üçün ayrılmış və xüsusi təlimatlandırılmış əməkdaşların olduğu kodlaşma otağına verilir. Ertəsi gün əvvəlcədən dəvət olunmuş nəzarətçilər bu otağa gələrək imtahan vərəqlərini və cavab kartlarını götürüb imtahana gedirlər. Nəzarətçilər özləri də hansı qrupda nəzarəti həyata keçirəcəklərini əvvəlcədən bilmirlər. Bu, onlara yalnız sənədləri götürdükləri zaman məlum olur. Nəzarətçilər də xüsusi olaraq təlimatlandırılıblar ki, imtahan prosesində köçürmə, mobil qurğulardan, konspektlərdən istifadə və s. kimi neqativ hallara yol verilməsin, tələbələr yalnız öz öyrəndiklərini ortaya qoysunlar. Belə hallar baş verdikdə isə nəzarətçilər tərəfindən dərhal qarşısı alınır.

İmtahana ayrılmış 2 saat vaxt başa çatdıqdan sonra nəzarətçi müəllimlər cavab kartlarını imtahan vərəqi ilə birlikdə kodlaşma otağına təhvil verirlər. Burada cavab kartları kodlaşdırılır, yəni onların tələbə haqqında məlumat olan hissəsi kəsilib götürülərək xüsusi yerdə saxlanılır. Sonra kodlaşdırılmış cavablar yoxlanılmaq üçün yoxlama otağına verilir və həmin otaqda yerləşən xüsusi dəvət olunan müəllimlər tərəfindən yoxlanılaraq qiymətləndirilir. Bu müəllimlər də hansı qrupun işlərinin yoxlanmaq üçün ona veriləcəyini əvvəlcədən bilmirlər. Onlar yalnız kod olan vərəqləri yoxlayırlar. Yoxlama başa çatdıqdan sonra nəticələr artıq kodlaşma otağına deyil, emal otağına verilir. Burada emal olunur, yəni tələbələrin aldıqları qiymətlər müəyyənləşdirilərək imtahan vərəqlərinə yazılır, şöbələrə verilərək tələbələrə elan olunur.

Qulu Novruzov tətbiq olunan başqa bir yenilik haqqında da bizə məlumat verdi. Bildirdi ki, gedən bütün bu proseslər ixtisasın adından başlamış tələbələrə yazılan qiymətlərədək "İmtahan müşayiət protokolu" adlandırılan xüsusi vərəqdə qeyd olunur. İmtahan prosesinin, bir növ, yol xəritəsi olan bu protokollardan sonralar cavab kartları olmadan müəyyən statistik emalların aparılmasında istifadə üçün nəzərdə tutulur.

Hər üç otağa girişin kənar şəxslərə, hətta kollecin məsul əməkdaşlarına belə qadağan olunduğunu diqqətə çatdıran direktor bildirdi ki, imtahan başlanan vaxtdan bəri hər gün aparılan təkmilləşmə nəticəsində artıq mükəmməl bir mexanizm formalaşıb və o, imtahanların obyektiv, şəffaf keçirilməsini təmin edir.

Kollecin direktoru bizimlə söhbətində valideynlərin imtahanlarda iştirakı ilə bağlı məsələyə də toxundu və qeyd etdi ki, valideynlər imtahanlarda iştiraka o qədər də həvəs göstərmirlər. Yalnız bəzi qruplarda onların imtahanda iştirakını təmin edə bilirik. Buna görə də Q.Novruzov valideynlər arasında maarifləndirmə işlərinin aparılmasına ehtiyac duyulduğunu xüsusilə diqqətə çatdırdı.

Kollecdə imtahanların nəticələrindən narazı qalan tələbələrin apelyasiya müraciəti üçün xüsusi forma hazırlanıb. Tələbə orada adını, hansı fəndən narazı qaldığını və narazılığının səbəbini qeyd edir və müraciətlər komissiyada obyektiv araşdırılır.

Bizimlə söhbətinin sonunda Qulu Novruzov imtahanın şəffaf və obyektiv keçirilməsinin tələbələri oxumağa kifayət qədər stimullaşdıran ciddi bir amil olduğunu, bu istiqamətdə atılan addımların öz nəticəsini artıq büruzə verdiyini, dəhlizlərdə, kitabxanada oxuyan tələbələrin sayının artdığını, onlar arasında bir canlanma müşahidə olunduğunu da xüsusi vurğuladı.

Sonra kollecin direktoru ilə kodlaşma, yoxlama və nəticələrin emalı otaqlarına baş çəkərək deyilənlərin əyani şahidi olduq.

Daha sonra ibtidai sinif müəllimliyi ixtisası üzrə IV kursların 2 qrupunun Ana dili və onun tədrisi metodikasından keçirilən dövlət attestasiya imtahanlarında qısa müşahidələr apardıq. Tələbələr, Dövlət Attestasiya Komissiyasının sədrləri, nəzarətçi müəllimlər imtahanların təşkilindən razılıqlarını bildirdilər, onların tam şəffaf və obyektiv aparıldığını qeyd etdilər.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*